*150 il əvvəl oxumaq, yazmaq bir çoxları üçün xəyal, dünya xəbərləri isə ümumən əlçatmaz idi. 1875-ci il iyulun 22-də qaranlığı aydınladan bir işıq saçdı. Bu, Həsən bəy Zərdabinin redaktorluğu ilə ərsəyə gələn "Əkinçi" qəzetinin işığı idi. Azərbaycanda peşəkar jurnalistika, milli mətbuatın tarixi də elə bu nəşrlə başladı. "Əkinçi" qəzeti təkcə bir mətbu orqan deyil, həm də xalqın maariflənməsi, milli oyanış və ictimai düşüncənin formalaşmasında mühüm bir addım oldu. İlk azərbaycandilli qəzet olan "Əkinçi" sadə xalqın dili ilə yazır, maarifçilik ideyalarını gündəmə gətirir, ictimai ədalətsizlikləri ifşa edirdi. Elə bu səbəbdən də bir çox məmurlar və mühafizəkar dairələr tərəfindən narahatlıqla qarşılanırdı. Həsən bəy Zərdabinin bu addımı daha sonralar "Ziya", "Kəşkül", "Şərqi-rus", "Həyat", "Füyuzat" kimi qəzet və jurnalların yaranmasına zəmin yaratdı. Beləcə, Azərbaycan jurnalistikası maarifçilik və milli oyanış ideyaları üzərində formalaşaraq bir məktəbə çevrildi.*



# Milli mətbuatın 150 illik işığında: söz, həqiqət və məsuliyyət axtarışı

H.Zərdabi cəmiyyəti savadsızlıqdan elmə, təhsilə və inkişafa aparmağa çalışırdı. O dövr üçün bu, son dərəcə cəsarətli və yenilikçi bir addım idi. "Əkinçi"nin çətin şəraitdə ərsəyə gəldiyi bir vaxtda, qəzetin həm naşiri, həm redaktoru olan, həm də onun bütün qayğılarını öhdəsinə götürən Zərdabi kədərlə yazırdı: "Gülmək yeri deyil, siz ağlayız ki, bizim müsəlmanların bircə qəzeti də basdırmağa adamı yoxdur" ("Əkinçi", №3). "Əkinçi" adıyla işıq üzü görən qəzet guya kənd təsərrüfatından danışılacağını bildirirdi, əslində isə məqsədi və fəaliyyət istiqaməti daha geniş və dərin idi.

"Qəzetin muradı xalqın gözünü açmaqdır..." ("Əkinçi", №7), deyən Zərdabi qəzetin əsas məqsədini xalqı oyatmaq, maarifləndirmək, onlara elmin, biliklərin vacibliyini çatdırmaqda görürdü. Bu istiqamət "Əkinçi"nin əsas məqalə və yazılarında da əks olunurdu. Cəmiyyətin tərəqqisi, cəhalətlə mübarizə, gələcək nəslin təhsili və təlim-tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirilirdi. Həsən bəy Zərdabi oxucuları düşünməyə, ayıq olmağa və maariflənməyə səsləyirdi: "Səy et, zəhmət çək, elm təhsil elə ki, dövlət qazanıb xoşgüzəran olasan". Onun istəyi, "Əkinçi"nin sadəcə məlumat yaymaq deyil, xalqın fikrini oyatmaq, cəmiyyətldəki yerini möhkəmləndirmək, tənqidi baxışlara yol açmaq idi. Məqsədi sadə olduğu qədər, dərin və məzmunlu idi: xalqı elmə çağırmaq, inandırmaq və işıqlı gələcəyə aparmaq.

Qəzetin "Daxiliyyə" bölməsində o, mətbuatla bağlı fikirlərini bölüşür, mətbuatın vəzifələrini, əsas istiqamətlərini açıqlayırdı. "Qəzet dərviş kimi nağıl deyə bilməz, onun borcudur işlərin yaman və yaxşılığını ayna kimi xalqa göstərsin, ta xalq öz nikbədindən xəbərdar olub onun əlacının dalınca olsun" ("Əkinçi", №7 ). Zərdabinin illər əvvəl yazdığı fikir bu gün də medianın əsas missiyasıdır: obyektiv informasiya, vicdanlı təqdimat və məsuliyyət. Rəqəmsal dövrdə informasiya bolluğu şəraitində bu mesaja təkcə media deyil, hər kəs diqqət verməlidir.

Zərdabi üçün "Əkinçi" yalnız informasiya daşıyıcısı deyildi. Qəzet insanlara savad öyrədən, bilik verən, dəyərli məsləhətləri ilə onların işini asanlaşdıran mənbə idi: "...qəzet və jurnal oxumaq insanı dünyadan xəbərdar edir, öz dilini öyrədir..." (Əkinçi, №15). Zərdabi mətbuatla bağlı qəzetin meyarlarını müəyyənləşdirərək yazırdı: "Hər bir vilayətin qəzeti gərək ol vilayətin aynası olsun. Yəni ol vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə, onların hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, ol qəzetə baxan xalqı aynada görən kimi görsün" ("Əkinçi"). XIX əsrdə deyilən bu fikirlər müasir media üçün bu gün də aktualdır. Zərdabi jurnalistikanın funksiyasını xəbər yaymaqla yanaşı, qəzetin xalqla əlaqəsinin şəffaf, obyektiv olmasını istəyirdi. Eyni zamanda, bölgələrdəki vəziyyəti, insanların həyat tərzini, sosial ehtiyaclarını nəzərə almağı və bölgə qəzetlərinin açılmasını arzulayırdı. O dövr üçün bu, bir yenilik olsa da, bu gün mətbuat yalnız maarifləndirmə vasitəsi deyil, həm də cəmiyyətin gündəlik həyatını, problemlərini, arzularını və uğurlarını əks etdirən ictimai platformaya çevrilib.

Zərdabinin "xalqın dərdi və xahişi qəzetdə çap olunsun" fikri, "ayna" kimi baxışı bu gün də mediaya dair əsas dəyərləri və funksiyaları qoruyub saxlayır. Media cəmiyyəti narahat edən məsələləri gündəmə gətirməli, yayımladığı xəbərlər isə dəqiq və qərəzsiz olmalıdır. Zərdabinin dili ilə desək, ayna gerçəyi göstərməli, eyni zamanda görünməyən problemləri də gün üzünə çıxarmalıdır. Elə buna görə də müasir mediada etik normalara daha çox diqqət göstərilməlidir.

Bir məqamı da xüsusi qeyd edək ki, Zərdabinin fikirləri sadə bir çağırış deyil, bugünkü media istər çap mediası, istər televiziya, istərsə də rəqəmsal platformalar üçün çox önəmlidir. O, qəzetdə verilən məqalələrə oxucunun fikrini, razı və narazı mövqeyini eşitmək istəyirdi. "6 aydır qəzet çıxır, artıq Londonda onu tanıyırlar... Amma bizdə nəinki oxumurlar, heç varlığından da xəbərləri yoxdur" (Əkinçi, № 12, 1 yanvar 1876). Zaman keçdi, dünya dəyişdi, texnologiya sürətlə inkişaf etdi, amma bu fikir öz aktuallığını itirmədi. Yeri gəlmişkən qeyd edək ki, informasiya bolluğu şəraitində sosial şəbəkələr media sistemini ünsiyyətə daha açıq, interaktiv formaya salıb. Bununla belə, bəzən passiv izləyicilərə də rast gəlirik. Zərdabi çıxışlarında məhz belə, interaktiv cəmiyyətdən, fikir mübadiləsi olan bir informasiya məkanından danışırdı.

Bugünkü media ilə müqayisədə "Əkinçi" fərqli görünə bilər. Buna baxmayaraq, medianın əsas məqsədi dəyişməyib və Zərdabinin XIX əsrdə qoyduğu prinsiplər bu gün də aktualdır: oxucuya doğrunu demək və ictimai şüuru formalaşdırmaq. Bu baxımdan "Əkinçi" qəzetinin ən böyük xidmətlərindən biri də Azərbaycan dilinin inkişafı və təbliği idi. Zərdabi ana dilinin saflığını qorumağı, onu inkişaf etdirməyi özünün əsas vəzifələrindən biri hesab edirdi. Qəzetin səhifələrində xalqın başa düşəcəyi sadə və aydın dildə yazılar dərc olunurdu. Bu, birbaşa olaraq gələcək nəsillərə ana dilini sevdirmək, onlara milli kimliyin əsas daşıyıcısı olan dilin vacibliyini aşılamaq demək idi. Zərdabinin "Biz millətimizə hər nə cür xidmət edə biləcəyiksə, ancaq dil vasitəsilə olacaqdır" fikri dilin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Bu gün də Azərbaycan dilinin inkişafı və təbliği milli kimliyimizin qorunmasında əsas rol oynayır.

"Dünya bir şeydir ki, həmişə dövran edir və insan bu tövr dünyanın gərdişinə görə gərək habelə öz rəftarını da dəyişdirsin, necə ki məsəldir deyirlər, zəmanə sənə saz olmasa, sən zəmanəyə saz olgilən" (Əkinçi, №1).

Zamanla ayaqlaşmaq, müasirləşmək, dəyişmək bacarığı vacib şərtdir. Müasir dövrün reallıqları da bunu sübut edir. XXI əsr mediasında rəqəmsal media, sosial şəbəkələr, süni intellektin inkişafı informasiya məkanını daha sürətli, mürəkkəb və eyni zamanda bir qədər də tərəddüdlü edib. İnformasiya saniyələrlə yayılır, oxucu özü bəzən informasiya istehsalçısına çevrilir. Medianın əsas vəzifəsi, cəmiyyəti maarifləndirmək, doğru informasiyanı düzgün təqdim etmək olduğu halda, aldığımız informasiya gerçəyə əsaslanırmı, oxuduğumuz xəbər reallıqmı, gördüyümüz faktlarmı? Hazırki rəqəmsal mühitdə sürətlə yayılan feyk xəbərlər və dezinformasiya, cəlbedici, aldadıcı başlıqlar ictimai fikrə təsir edir, auditoriyanı seçim qarşısında qoyur. Bu səbəbdən də mediada çox zaman təəssürat, səs-küy reallığı, faktları əvəzləsə də, etik normalar gözlənilməlidir. Əlbəttə ki, bu günün oxucusu da informasiya savadlılığı baxımından daha hazırlıqlı olmalıdır. Forma dəyişə bilər, amma həqiqətə xidmət prinsipi dəyişməməlidir.

Müasir medianın sürət və rəqabət dövründə "Əkinçi"nin sakit, lakin məzmunlu səsi bizə deyir: "Oxucuya həqiqəti verin, onu oyadın, aldatmayın".

Zaman dəyişsə də, sözün gücü, medianın əsas vəzifəsi dəyişmir: xalqın aynası olmaq və onu özünə göstərmək. Bu prinsipi qoruyan media həm güvən, həm də təsir qazanır.

**Sevinc MƏMMƏDOVA,**
**Bakı Dövlət Universitetinin**
**Multimedia və elektron kommunikasiya**
**kafedrasının dosenti.**